“Hədəf” Şirkətlər Qrupunun mətbuat xidmətinin verdiyi məlumata görə, I Avropa Oyunları çərçivəsində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə “XAN” nəşriyyatında “Yazıçılarımızı dünyaya tanıdaq” adlı layihə çərçivəsində kitab dəsti nəşr edilib. Layihənin hazırlanmasında “Hədəf Nəşrləri”nin mütəxəssisləri də yaxından iştirak ediblər. Kitabda Azərbaycanın bir sıra tanınmış yazıçılarının həyat və yaradıcılığı haqqında məlumat verilir, onların əsərlərindən müəyyən nümunələr təqdim edilir. İngilis dilində olan topluda Nizami Gəncəvi, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundzadə, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə, Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Hüseyn Cavid, Üzeyir Hacıbəyli, Məhəmməd Hüseyn Şəhriyar, Mir Cəlal, İlyas Əfəndiyev, Bəxtiyar Vahabzadə, İsa Muğanna, Məmməd Araz, Anar, Elçin, Kamal Abdulla kimi Azərbaycanın görkəmli nümayəndələri yer alıb.

Layihənin məsləhətçisi Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, kitab dəstlərinin müəllifi və layihənin rəhbəri isə f.ü.f.d., dos. Şəmil Sadiqdir. Kitabın ön sözün müəllifi Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibəyli, naşiri Müşfiq XAN, ingilis dilinə tərcümə edəni Könül Nəsibova, redaktoru isə Nərgiz Cabbarlıdır.

Qeyd edək ki, layihənin dizayneri Teymur Fərzinin verdiyi məlumata görə, hazırda layihənin təqdimatı üçün “Azerbaijani Literature” adlı qısa filmi hazırlanır.

**Əli SADIQOV,**
**“Respublika”.**

